# Xocalı soqırımına həsr edilmiş xatirə turniri

*Xocalı soyqırımının iyirmi beşinci ildönümünə həsr edilmiş silsilə tədbirlər planına əsasən 24 fevral 2017-ci il tarixdə rayon gənclər və idman idarəsinin təşkilatçılığı ilə Olimpiya İdman Kompleksində stolüstü tennis üzrə kişilər arasında xatirə turniri keçirilmişdir. Turnirin keçirilməsində məqsəd Xocalı soyqırımı həqiqətlərini ictimaiyyətin diqqətinə bir daha çatdırmaq, həmçinin yarış iştirakçılarının idman ustalıqlarının artırılması və təkmilləşdirilməsini təmin etməkdir.*

Turnir iştirakçıları əvvəlcə Xocalı soyqırımı qurbanlarının xatirəsini bir dəqiqəlik sükutla yad etmişlər. Daha sonra tədbirin açılış mərasimində rayon gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov çıxış edərək, Xocalı faciəsinin iki yüz ilə yaxın bir müddətdə erməni şovinist-miilətçiləri tərəfindən azərbaycanlılara qarşı müntəzəm olaraq həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasətinin davamı və ən qanlı səhifəsi olduğunu bildirdi. Bununla belə yarış iştirakçılarının nəzərinə çatdırıldı ki, xocalılar hətta amansız soyqırım günündə də özlərini əsl qəhrəman kimi aparmış, erməni-rus hərbi birləşmələrinə qarşı qeyri-bərabər döyüşdə igidliklə vuruşmuş, düşmən qarşısında əyilməmiş, xalqımızın qəhrəmanlıq tarixinə şərəfli səhifələr yazmışlar.



Xatirə turnirində rayonun idarə, müəssisə və idman kollektivlərindən olan 35-dək idmançı gərgin oyun nümayiş etdirmişdir. Yarışın nəticəsinə əsasən Ramiz Mirkamalov I yeri, Rübail Qarayev II yeri və Əli Hacıyev III yeri tutmuşlar.

Qaliblərə rayon gənclər və idman idarəsinin diplom və xatirə hədiyyələri təqdim edilmişdir.

**✍ Elçin OSMANOV,**
**gənclər və idman idarəsinin aparıcı məsləhətçisi.**

# Unudulmaz faciə

Fevralın 26-sı Azərbaycanın tarixinə qanlı hərflərlə yazılıb.

XX əsrin ən dəhşətli və qanlı faciələrindən hesab edilən Xocalı soyqırımının 25-ci ili tamam olur.

Bu tarixi faciənin ağırlığını gələcək nəsillərin unutmaması məqsədi ilə, Aydınqışlaq kənd tam orta məktəbində tədbir keçirilib. Tədbiri giriş sözü ilə məktəbin direktoru Sevil Nəbiyeva açıb.

Məktəbin tarix müəllimi Təmraz Mehdiyev ermənilərin Xocalıda törətdikləri qanlı qətliama dair geniş məlumat verib.

Şagirdlərdən Şahnaz Xancanovanın, Nazir Əfəndizadənin, İlahə Bilalovanın səsləndirdikləri Xocalı qırğınına həsr olunmuş şeirlərdə həyəcan, titrəyiş erməni vəhşiliyini bir daha göz önünə gətirdi və iştirakçıları təsirləndirdi.

Sonda bu dəhşətli faciəni heç vaxt unutmamaq gənc nəslin nümayəndələrinə bir daha tövsiyə edildi.

**✍ Rəna XANCANOVA,**
**Aydınqışlaq kənd diyarşünaslıq klubunun müdiri.**

# Xocalı faciəsi unudulmayacaq

Xocalı faciəsi insanlığa qarşı törədilmiş ən böyük cinayətdir.

Mənfur qonşumuz olan ermənilərin Azərbaycana qarşı işğalçılıq siyasəti məhz Xocalı şəhərinin məhvi ilə vəhşiliyin ən yüksək zirvəsinə yüksəlmişdir.

Ermənilər tarix boyu Azərbaycana qarşı torpaq iddialarında olub. Onlar hər zaman böyük Ermənistan dövləti qurmaq xülyası ilə yaşayıblar. Tarixə qısa bir nəzər salaq...

1918-ci il... Şərqdə ilk demokratik resbubilkanın yaranması üçün əlverişli zəmin mövcud idi. Hələ o dövrdə ermənilər bolşeviklərlə əlbir olub Azərbaycanin müxtəlif bölgələrində—Bakıda, Şamaxıda, Naxçıvanda, Zəngəzurda, Lənkəranda, xüsusilə Qubada azərbaycanlılara qarşı analoqu olmayan, insanlığa sığmayan bir genosid törətdilər.

Qubada baş verən hadisələr daha dəhşətli idi. 2007-ci ildə Qubada aşkar olunan kütləvi məzarlıq erməni vandalizminin mənfur simasını açaraq göstərdi. İndiyədək burada 400 insan qalığı tapılıb. Tədqiqat işləri hələ də davam edir.

Ermənilər 1918-ci ildən bəri yarımçıq qalmış torpaq iddialarını həyata keçirmək üçün 1988-ci ildə yenidən fəallaşdı. Hakimiyyətdə olan qüvvələrin zəifliyindən istifadə edərək, erməni silahlı quldur dəstələri öz çirkin əməllərini davam etdirdilər.

1992-ci il soyuq fevral ayının 25-dən 26-na keçən gecə Azərbaycanın dilbər guşələrindən biri olan Xocalı şəhəri ilhaq edildi. Xocalının ardınca Dağlıq Qarabağdan kənarda daha 7 rayon işğal olundu. Laçın, Kəlbəcər, Ağdam, Qubadlı, Zəngilan, Füzuli, Cəbrayıl kimi əzəli və əbədi torpaqlarımız düşmən tərəfindən zəbt olunaraq tariximizə, mədəniyyətimizə silinməz yaralar vuruldu. Bu gün öz yurd-yuvasından didərgin düşmüş minlərlə qaçqın və məcburi köçkün tarixi torpaqlarına dönmək həsrətilə yaşayırlar.

Suveren bir dövlət olan Azərbaycan ermənilərin xalqımıza qarşı törətdiyi amansız cinayətlərin beynəlxaq aləmdə azərbaycanlılara qarşı soyqırımı aktı kimi tanınması üçün gərgin iş aparır. Xüsusilə xarici ölkələrdə fəaliyyət göstərən diaspor təşkilatları Azərbaycan xalqının başına gətirilən müsibətlərin dünya miqyasında tanınması üçün əllərindən gələni əsirgəmirlər.

Artıq 12 dövlət və ABŞ-ın 21 ştatı rəsmi olaraq Xocalı soyqırımını tanıyıb.

Xocalı faciəsini unutmaq öz tarixini unutmaq deməkdir. Vətənin keşiyində ayıq-sayıq durmaq, vətənə layiqli övlad olmaq, vətəni layiqincə təmsil etmək, hər bir gəncin borcudur. Bu gün neçə qəhrəman oğullar öz vətən borcunu yerinə yetirərək torpaqlarımızın keşiyində ayıq-sayıq dayanırlar. Qoy düşmən bilsin ki, Azərbaycan bir qarış torpağını heç kimə güzəştə getməyəcək. Nahaq yerə axıdılan qan heç vaxt yerdə qalmayacaq. Haqq ədalət bir gün yerini tapacaq...

**✍ Vüsalə QƏRİBOVA,**
**tədris mərkəzinin psixoloqu.**

# Tariximizin şanlı səhifəsi

**(Əvvəli ötən saylarımızda).**

Onlar bu bölgədə özləri üçün arxa yaratmaq məqsədilə belə çirkinliklərə əl atmış və bu işdə rəhbərliyi milliyətçə erməni olan polkovnik İvan Lazarevə tapşırmışlar. Elə bu gün xalqımızın ən böyük dərdi olan Dağlıq Qarabağ yarası Türkmənçay müqaviləsinin acı nəticələrindən biridir.



1918-ci il mayın 28-də müstəqil Azərbaycan Demokratik Respublikası yaradıldı. Bakı şəhəri düşmən əlində olduğu üçün müvəqqəti olaraq paytaxt Gəncəyə köçürüldü. Yeni yaranmış bu respublikanı ilk dəfə rəsmi surətdə Türkiyə tanıyır. Türkiyənin köməkliyi ilə Azərbaycan Demokratik Cümhuriyyəti Bakını düşməndən azad edir. ADR quruculuq işlərinə başlayır. Gəncə şəhərinin tarixi adı bərpa edilir. Azərbaycan Dövlət Universiteti yaranır. 1918-ci il dekabrın 7-də Azərbaycan parlamentinin ilk iclası olur. Azərbaycan milli ordusu qüdrətli bir hərbi qüvvə kimi Qarabağda, Zəngəzurda, digər ərazilərdə baş verməyi erməni qiyamlarını yatdırır. ADR mövcud olduğu 23 ay ərzində çox işlər gördü və 1920-ci il aprelin 28-də süquta uğradı.

İllər keçdi, zaman dəyişdi, xalq haqq-ədalət uğrunda mübarizəyə başlamağın əsl məqamı olduğunu anladı. 1988-ci ildən başlayaraq qədim tarixi dövlətimizin, dədə-baba torpağımızın ərzisindən-Qərbi Azərbaycanımızdan azəri türklərinin kütləvi sürətdə qovulması prosesi genişləndi. Belə bir hadisə artıq səbir kasası daşan xalqın qəzəbinə səbəb oldu. 1989-cu ildə Zəngəzurda, Zəngibasarda, Hamamlıda, Dərələyəzdə neçə-neçə Azərbaycan kəndi xarabalığa çevrilmiş, minlərlə insan daşnak təcavüzünün, vəhşiliyin qurbanı olmuşdur. Cəzasız qaldığını görən düşmən daha da azğınlaşır və Qarabağın dağlıq hissələrində yerli azərbaycanlıları vəhşicəsinə qətlə yetirirdilər. Çörəyimizi yeyən, suyumuzu içən, qədim torpaqlarımıza yiyələnən erməni azğınları Əsgaranda iki gənci 1988-ci il fevralın 6-da qətlə yetirdi. Belə bir vaxtda Azərbaycan xalqı öz haqqını müdafiə etmək, bu cür vəhşiliklərin qarşısını almaq üçün ayağa qalxdı. Azadlıq meydanında coşub kükrəyən xalq izdihamından qorxan, ermənilərin müttəfiqi, türk dünyasının qəddar düşməni olan Mixail Qorbaçov ədalətsiz bir fərman verdi. 1990-ci il yanvarın 19 dan 20-nə keçən gecə təpədən-dırnağa qədər silahlanmış rus ordusu əliyalın, haqqını tələb edən insanların haqq səsini boğmaq üçün xalqımızı tankların altında əzdi. Ancaq xalqın iradəsini qıra bilmədilər. Bununla da Azərbaycan tarixinə, dilinə yeni bir söz əlavə olundu. Şəhidlər! Şəhidlər aşıb-daşan arzumuz, coşub kükrəyən azadlığımız, ürəklərimizin ağrısıdır. Biz bu mübarizə yollarında şəhidlər versək də fəqət sınmadıq. Bu faciə azmış kimi Qarabağın, qeyrət qalamızın düşmən hücumuna məruz qalması xalqımızı tamamilə qəzəbləndirdi. Kərkicahan, Malıbəyli, Quşçular, Meşəli od içində külə döndü. Azğınlaşmış erməni hərbi birləşmələri 1992-çi il fevralın 26-na keçən gecə qəflətən Xocalıya hücum etdi və törətdiyi amansız soyqırımla onu yer üzündən sildi. Bunun ardınca 1992-ci ilin mayında Şuşa, sonra isə Laçın işğal olundu.

Bəli! Bütün bunlar hamısı doğma vətənimiz Azərbaycanın tarixidir. Bu tarixi qorumaq, mühafizə etmək dərindən öyrənmək müasir dövrdə muzeylərin öhdəsinə daha çox düşür.

Deyirlər tarix təkrar olunur və haqq-ədalət gec də olsa zəfər çalır. Bütün bunlardan sonra xalq öz tarixini unutmamalıdır, çünki keçmişini unutmadan gələcəyini düşünən xalq millətdir.

**Rayon tarix-diyarşünaslıq muzeyi.**

# Yad edilmişdir

Təbriz Yaqubov adına Bum qəsəbə tam orta məktəbində Xocalı soyqırımının 25-ci ildönümünə həsr edilmiş tədbir keçirilib. Tədbiri uşaq birliyinin rəhbəri Gülnar Quliyeva açmışdır. Soyqırım qurbanlarının xatirəsi bir dəqiqəltik sükutla yad edilmişdir. Sonra məktəbin direktoru Məlahət Dadaşova çıxış etmiş, ermənilərin Xocalıda törətdiyi vəhşiliklərindən söz açmışdır. Məktəbin IV «a» sinfinin şagirdləri Xocalıya həsr edilmiş şeirlər söyləmişlər.

**✍ Emin BARATOĞLU,**
**Bum qəsəbə muxbir postunun rəhbəri.**

# Anım tədbiri

Qəbələ Regional QHT -lərin Resurs və Təlim Mərkəzində Xocalı faciəsi ilə əlaqədar anım tədbiri keçirilib.

Tədbirdə QHT nümayəndələri, müəllim və şagirdlər, gənclər iştirak ediblər.

Əvvəlcə Xocalı faciəsi şəhidlərinin müqəddəs xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Qəbələ Regional QHT-lərin Resurs və Təlim Mərkəzinin icraçı direktoru Anar Məhərrəmov Xocalı faciəsi haqqında məlumat verib. Qeyd edib ki, Xocalı soyqırımı Azərbaycan tarixində ən dəhşətli və faciəli hadisələrdən biridir. XX əsrin faciəsi olan Xocalı soyqırımı təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa, bəşəriyyətə qarşı yönəlmiş ən ağır cinayətlərdəndir. Dünyada qəbul olunmuş beynəlxalq insan hüquqları haqqında sənədlərə görə Xocalı faciəsi dünya miqyasında soyqırım kimi qiymətləndirilməlidir.

**Qəbələ Regional QHT-lərin Resurs və Təlim Mərkəzinin mətbuat xidməti.**